

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Aprel 2026

www.ereforms.gov.az
info@ereforms.gov.az

# AZƏRBAYCANIN MALİYYƏ VƏ İQTİSADİ VƏZİYYƏTİ SABİTDİR.

Çox illər ərzində, artıq doqquz ildir ki, valyutamız sabitdir. Əslində, məzənnə dəyişməz olaraq qalır. 2017-ci ildən etibarən bir dollar 1,7 manat təşkil edir. Düşünürəm ki, bu, hər hansı yerli və xarici potensial sərmayədar üçün mühüm göstəricidir. Son iyirmi il ərzində Azərbaycana sərmayə kimi 350 milyard ABŞ dolları yatırılmışdır və onun demək olar ki, yarısı xarici tərəfdaşlardan daxil olmuşdur.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 27 aprel 2026-cı il tarixində Qəbələdə Azərbaycan-Çexiya biznes-forumundakı nitqindən**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 17

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2026-cı ilin yanvar-mart ayları ərzində qeyri-neft-qaz ixracı 862 milyon ABŞ dolları təşkil edib.

## Cari ilin yanvar-mart ayları ərzində yeyinti məhsullarının ixracı 281 milyon ABŞ dolları olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın 2026-cı il üzrə aprel sayını təqdim edib. İcmala əsasən, 2026-cı ilin yanvar-mart aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə **11,7%** artaraq **862 milyon** ABŞ dolları təşkil edib. Bu dövrdə yeyinti məhsulları üzrə ixrac **25,1%** artaraq **281 milyon** ABŞ dollarına bərabər olub.

Cari ilin yanvar-mart aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4,5 dəfə, pambıq iplik 2 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar **68,4%**, pambıq lifi **43,5%**, meyvə-tərəvəz **22,1%**, alüminium və onlardan hazırlanan məmulatlar **20,4%**, çay **15,1%**, spirtli və spirtsiz içkilər isə **4,3%** artıb.

2026-cı ilin yanvar-mart aylarında aqrar məhsullar üzrə ixrac **26,6%** artaraq **215,6 milyon** ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac **27,4%** artaraq **88 milyon** ABŞ dolları təşkil edib. Bütövlükdə aqrar və aqrar-

sənaye məhsullarının birgə ixracı **26,8%** artaraq **303,7 milyon** ABŞ dollarına bərabər olub.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (**95.3 milyon** ABŞ dolları) birinci olub. Bu siyahıda meşə fındığı (**68.3 milyon** ABŞ dolları) ikinci, mis filizləri (**60.8 milyon** ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin mart ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında pambıq lifi (**25.5 milyon** ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl (**22.1 milyon** ABŞ dolları) ikinci, tomat (**18.5 milyon** ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin yanvar-mart aylarında Rusiya Federasiyasına 211.6 milyon ABŞ dolları, Türkiyəyə **139.9 milyon** ABŞ dolları, Gürcüstana **120.7 milyon** ABŞ dolları, İsveçrəyə **103.4 milyon** ABŞ dolları, Ukraynaya isə **42.7 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2026-cı ilin mart ayında Rusiya Federasiyasına **62.5 milyon** ABŞ dolları, Türkiyəyə **56.5 milyon** ABŞ dolları, Gürcüstana **43.5 milyon** ABŞ dolları, İsveçrəyə **35.7 milyon** ABŞ dolları, Ukrayna **13.7 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.



# 2026-CI İLİN YANVAR-MART AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2026
İXRAC İCMALI
aprel



# 2026-CI İLİN MART AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025 2026

**2025: 286,2 mln**



**2026: 281 mln**

# 2026-CI İLİN MART AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2026
İXRAC
İCMALI
aprel



# 2026-CI İLİN YANVAR-MART AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI
(2025-ci ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)



Aqrar məhsullar

Aqrar-sənaye məhsulları

2025/2026
**+26.8%**

**303,7 mln $**



2025/2026
**+26.6%**

**215,6 mln $**

**88 mln $**

2025/2026
**+27,4%**

# 2026-CI İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2026-CI İLİN MART AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI aprel



# 2026-CI İLİN YANVAR-MART AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI aprel

| | 2026 | 2025 |
|---|---|---|
| Qızıl | 95.3 | 65.2 |
| Meşə fındığı | 68.3 | 43 |
| Mis filizləri və konsentratları | 60.8 | 5.2 |
| Pambıq lifi, daranmaya məruz qalmamış | 57.1 | 39.5 |
| Tomat (pomidor) | 45 | 44.6 |
| Xurma | 32 | 32.3 |
| Karbamid | 28.8 | 47.9 |
| PE Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 28 | 19.1 |
| Ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza | 27.9 | 6.1 |

* Davamı növbəti səhifədə

Əvvəli 11-ci səhifədə

| Məhsul | 2026 | 2025 |
|---|---|---|
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 27 | 30.3 |
| Alma | 24 | 19.3 |
| İlkin formalı propilen sopolimerləri | 16.3 | 24.8 |
| İlkin formalı polipropilen | 13 | 15.1 |
| Emal olunmamış alüminium ərintiləri | 11.8 | 10.8 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 11.7 | 0.61 |
| Tərkibində tütün olan siqaretlər | 11.4 | 6.7 |
| Tərkibində 55 kütlə %-dən çox silisium olan ferrosilisium ərintiləri | 9.1 | 2.9 |
| Nasos-kompressor boruları | 8.8 | 6.8 |

# 2026-CI İLİN MART AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2026-cı ilin yanvar-mart ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "AGRARCO" MMC, "Baku Steel Company" QSC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına "SOCAR POLYMER" MMC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: "AzerGold" QSC, "Azəralüminium" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, Azərbaycan Respublikasi Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərenerji" ATSC, "Socar Cape" MMC, "Naxçıvam Enerji" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

2026 İXRAC İCMALI aprel

# 2026-CI İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2026-CI İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** "AzerGold" QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

Azərbaycan Respublikasının Kosmik Agentliyini (Azərkosmos) digər ixracatçılardan fərqləndirən başlıca amil onun daxili bazar üzərindəki rolunun strateji mahiyyətidir.

**İdxalın əvəzlənməsi**

Azərkosmosun mövcudluğu olmasaydı, bu xidmətlər xarici operatorlardan alınmalı idi ki, bu da ölkənin xarici valyuta ehtiyatlarına əlavə yük formalaşdırardı. Yerli təminat bu xərclərin qarşısını effektiv şəkildə alır.

**Valyuta gəliri**

Şirkətin 30-dan çox ölkəyə ixrac etdiyi xidmətlər vasitəsilə ölkəyə davamlı xarici valyuta axını təmin olunur. Bu isə Azərbaycanın cari hesab balansına birbaşa müsbət təsir göstərir.

**Rəqabət qabiliyyəti**

Azərkosmosun xidmətlərinə üstünlük verən 90-a yaxın beynəlxalq müştəri onun qlobal bazarda rəqabət-qabiliyyətli operator kimi mövqeyini gücləndirir və uzunmüddətli ixrac gəlirlərinin davamlılığını təmin edir.

# AZƏRBAYCAN RESPUBLIKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) TƏRƏFİNDƏN 2026-CI İLİN YANVAR-MART AYLARINDA PEYK TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİNİN İXRACI



**Hesabat dövründə dünyanın 32 ölkəsindən olan 90-a yaxın şirkətə 4.1 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidmətləri ixrac edilmişdir.**

## Xidmət ixrac edilən 5 əsas ölkə

| Ölkə | Məbləğ |
|---|---|
| Birləşmiş Krallıq | 1.1 mln $ |
| Lüksemburq | 809.1 min $ |
| Türkiyə | 271.1 min $ |
| Pakistan | 261.1 min $ |
| İsveç | 187.2 min $ |

## Əsas ixrac bazarları

**Avropa**: Birləşmiş Krallıq, Lüksemburq, İsveç, Almaniya, Norveç, İspaniya, Macarıstan, İsveçrə, yüksək dəyərli bazarlar üzrə sabit müştəri portfeli.

**Yaxın Şərq və Asiya**: Türkiyə, Pakistan, Hindistan, İsrail, Kipr, BƏƏ, Livan, Sinqapur, sürətlə inkişaf edən telekommunikasiya bazarlarına çıxış.

**Afrika**: Nigeriya, Misir, Tanzaniya, Keniya, Uqanda, CAR, Konqo, Botsvana, Zimbabve, Afrikanın rəqəmsal inkişafına töhfə verən geniş coğrafiya.

**MDB**: Gürcüstan, Belarus, Tacikistan, Rusiya, Ukrayna , regional inteqrasiyanı dəstəkləyən yaxın coğrafi bazar.

# İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
Center for Analysis of Economic Reforms and Communication
Центр Анализа Экономических Реформ и Коммуникаций

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat

/iitkm

/@caerc